IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 22 Issue 02 IYUL 2026

A. S. PUŞKİN YARADICILIĞININ RUS ƏDƏBİYYATININ İNKİŞAFINDAKI ROLU

Aynur Zahir qızı Bədəlova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/my-orcid?orcid=0009-0002-9288-6218
badalovaaynurrr@gmail.com
https://doi.org/10.5281/zenodo.21393410

Xülasə

Məqalədə Aleksandr Sergeyeviç Puşkin yaradıcılığının rus ədəbiyyatının inkişafındakı rolu və onun milli realist ədəbi məktəbin formalaşmasına təsiri araşdırılmışdır. Tədqiqat zamanı Puşkinin poeziyası, nəsri və dramaturgiyası kompleks şəkildə təhlil edilmiş, müəllifin rus ədəbi dilinin zənginləşməsində, realizm cərəyanının təşəkkülündə və sonrakı nəsil yazıçıların yaradıcılıq istiqamətlərinin müəyyənləşməsində oynadığı rol qiymətləndirilmişdir. Xüsusi diqqət "Yevgeni Onegin" romanının ideya-bədii xüsusiyyətlərinə, Puşkin lirikasında vətən, azadlıq, sevgi mövzularının bədii ifadəsinə yönəldilmişdir. Bununla yanaşı, yazıçının "Belkin povestləri", "Kapitan qızı", "Boris Qodunov" əsərləri rus realist nəsri və dramaturgiyasının inkişafı kontekstində təhlil edilmişdir. Məqalənin nəticələri Puşkin irsinin rus və dünya ədəbiyyatı tarixində xüsusi yer tutduğunu, onun yaradıcılığının müasir ədəbiyyatşünaslıq baxımından da aktuallığını qoruduğunu göstərir.

Açar sözlər: rus ədəbiyyatı, realizm, poeziya, nəsr, dramaturgiya.

Abstract

The article examines the role of Alexander Sergeyevich Pushkin's work in the development of Russian literature and its influence on the formation of the national realist literary school. During the study, Pushkin's poetry, prose and drama were comprehensively analyzed, and the author's role in the enrichment of the Russian literary language, the formation of the realist movement and the determination of the creative directions of the next generation of writers was evaluated. Pushkin's lyrics are focused on the artistic expression of the themes of homeland, freedom, love. In addition, the writer's works "Belkin's Stories", "The Captain's Daughter", "Boris Godunov" were analyzed in the context of the development of Russian realist prose and drama. The results of the article show that Pushkin's legacy occupies a special place in the history of Russian and world literature, and his work remains relevant in terms of modern literary criticism.

Keywords: Russian literature, realism, poetry, prose, dramaturgy.

Giriş

Rus ədəbiyyatının XIX əsrdə qazandığı bədii yüksəlişin əsas simalarından biri Aleksandr Sergeyeviç Puşkindir. O, rus milli ədəbiyyatının bədii ənənələrinin formalaşmasında mühüm xidmətləri olan sənətkarlardandır. Puşkinin yaradıcılığı sonrakı dövrdə formalaşan realist ədəbiyyatın ideya və bədii əsaslarını yaratmış, rus söz sənətinin inkişaf istiqamətini müəyyənləşdirmişdir. Təsadüfi deyil ki, rus ədəbi tənqidində Puşkin haqqında danışarkən onun milli ədəbiyyat üçün yaratdığı yeni mərhələ xüsusi vurğulanır. Nikolay Qoqol Puşkini qiymətləndirərkən yazırdı: "Puşkin rus ruhunun fövqəladə təzahürüdür və, ola bilsin ki, bu ruhun yeganə bənzərsiz ifadəsidir." [4.] Bu yanaşma Puşkinin yaradıcılığının rus milli mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirildiyini göstərir. Qoqolun yanaşmasında Puşkin rus dilinin zənginliyini, xalqın mənəvi dünyasını və milli xarakterini öz yaradıcılığında ən dolğun şəkildə ifadə edən sənətkar kimi təqdim edilir.

Fyodor Dostoyevski də Puşkini rus ədəbiyyatının sonrakı inkişafında əsas başlanğıc nöqtəsi hesab edirdi. Onun fikrincə, Puşkin özündən sonra gələn bütün böyük yazıçılar üçün ortaq bir məktəb yaratmışdır. Müxtəlif estetik baxışlara malik olmalarına baxmayaraq, Qoqol, Turgenev, Tolstoy və digər klassiklər bu ədəbi ənənədən bəhrələnmişlər. Beləliklə, Puşkin yaradıcılığı yaratdığı ədəbi məktəblə rus realizminin formalaşmasına mühüm təsir göstərmişdir.

Puşkinin yaradıcılığının mühüm xüsusiyyətlərindən biri onun müxtəlif janrlarda eyni dərəcədə yüksək sənətkarlıq nümayiş etdirməsidir. O, poema, roman, dram, nəsr və publisistika sahələrində dəyərli əsərlər yaratmış, hər janra yeni bədii imkanlar qazandırmışdır. Onun əsərlərində klassik dünya ədəbiyyatının bədii ənənələri ilə milli rus düşüncəsi üzvi şəkildə birləşərək yeni bədii yaradıcılıq konsepsiyası meydana gətirmişdir.

Puşkin dünya ədəbiyyatının böyük nümayəndələrinin yaradıcılığına dərindən bələd idi və onların sənət təcrübəsindən yaradıcı şəkildə faydalanırdı. Homer, Dante, Şekspir, Höte və Bayron kimi klassiklərin təsiri onun əsərlərində hiss olunsa da, Puşkin bu təsirləri təqlid səviyyəsində saxlamamış, onları rus ədəbiyyatının milli xüsusiyyətləri ilə uyğunlaşdıraraq orijinal bədii üslub yaratmışdır. Bu baxımdan onun yaradıcılığı həm milli, həm də ümumbəşəri dəyərlərin sintezini əks etdirməsi ilə qiymətləndirilir.

Metodologiya

Tədqiqatın hazırlanması zamanı ədəbi-nəzəri və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Araşdırmanın əsasını Aleksandr Sergeyeviç Puşkinin bədii irsi, xüsusilə poeziyası, nəsr və dramaturgiya nümunələri təşkil edir. Yazıçının yaradıcılığı rus ədəbiyyatının inkişaf mərhələləri kontekstində nəzərdən keçirilmiş, əsərlərin ideya-məzmun xüsusiyyətləri, bədii ifadə vasitələri və sənətkarlıq prinsipləri sistemli şəkildə təhlil edilmişdir. Məqalədə Puşkin əsərlərində milli dəyərlərin, humanist ideyaların, azadlıq düşüncəsinin və insan obrazlarının bədii təqdimat xüsusiyyətləri araşdırılmışdır. Eyni zamanda yazıçının yaradıcılığı haqqında müxtəlif ədəbiyyatşünasların elmi yanaşmaları müqayisə edilmiş, onların irəli sürdükləri fikirlər ümumiləşdirilərək mövzunun elmi əsaslandırılmasına xidmət etmişdir. Araşdırma zamanı tarixi-müqayisəli yanaşma tətbiq olunmuş, Puşkin yaradıcılığının XIX əsr rus ədəbiyyatının formalaşmasındakı rolu və sonrakı ədəbi prosesə təsiri elmi mənbələr əsasında dəyərləndirilmişdir. Əldə olunan nəticələr mətn təhlili və elmi ədəbiyyatın sistemləşdirilməsi yolu ilə ümumiləşdirilmişdir.

Nəticələr

Aleksandr Sergeyeviç Puşkin yaradıcılığı rus ədəbiyyatının inkişafında yeni mərhələnin formalaşmasına mühüm təsir göstərmişdir. Yazıçının əsərlərinin təhlili göstərir ki, o, müxtəlif janrlarda yaratdığı nümunələr vasitəsilə rus ədəbi dilinin ifadə imkanlarını genişləndirmiş, realizmin əsas prinsiplərinin bədii cəhətdən möhkəmlənməsinə səbəb olmuşdur.

"Yevgeni Onegin" romanı dövrün ictimai-mədəni mənzərəsini əks etdirən əsər, eyni zamanda rus realist romanının inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm bədii nümunələrdən biridir. Əsərdə Onegin, Tatyana və digər obrazların xarakteri vasitəsilə insanın daxili aləmi və cəmiyyətlə münasibətləri bədii şəkildə təqdim edilmişdir. Puşkin poeziya, nəsr və dramaturgiyada tətbiq etdiyi sənətkarlıq xüsusiyyətləri ilə sonrakı rus yazıçılarının yaradıcılığına ciddi təsir göstərmişdir.

Beləliklə, Puşkin rus realizminin təşəkkülündə, müasir rus ədəbi dilinin inkişafında və milli ədəbiyyatın dünya ədəbiyyatı ilə inteqrasiyasında mühüm rol oynamışdır. Məhz bu xüsusiyyətlər onun yaradıcılığını tarixi baxımdan araşdırmaqla yanaşı, həm də müasir ədəbiyyatşünaslıq üçün aktual tədqiqat obyekti kimi dəyərləndirməyə əsas verir.

Müzakirə

Puşkinin ən mükəmməl əsərlərindən sayılan "Yevgeni Onegin" rus realizminin formalaşmasında mühüm rol oynamış bədii nümunələrdəndir. Mənzum roman janrında yazılmış bu əsər dövrün ictimai mühitini, insanların dünyagörüşünü və sosial münasibətləri geniş bədii

formada əks etdirir. Rus tənqidçisi Belinski "Yevgeni Onegin" haqqında yazırdı ki, bu əsər "rus həyatının ensiklopediyasıdır". [5.] Romanda bütöv bir dövrün bədii inikası, zadəgan cəmiyyətinin həyat tərzi, kənd və şəhər mühiti, ailə münasibətləri, məişət və mənəvi dəyərlər canlı müşahidələrlə təqdim olunur. Puşkin hadisələri idealizə etmir, o, həyatı bütün mürəkkəbliyi ilə göstərməyə çalışır. Əsərin baş qəhrəmanı Yevgeni Onegin rus ədəbiyyatında sonralar geniş inkişaf edən "artıq adam" tipinin ilk parlaq nümunələrindən biri hesab olunur. O, yüksək təhsil almış, geniş dünyagörüşünə malik olsa da, yaşadığı cəmiyyətlə uyğunlaşa bilmir. Mənəvi boşluq, məqsədsizlik və daxili narazılıq onun xarakterinin əsas xüsusiyyətlərinə çevrilir. Puşkin bu obraz vasitəsilə dövrün yüksək təbəqəyə məxsus gənclərinin psixoloji vəziyyətini ümumiləşdirir. Sonralar Lermontov, Turgenev, Qonçarov və digər sənətkarlar da bu obraz tipini müxtəlif istiqamətlərdə inkişaf etdirmişlər. Romanın digər mühüm obrazı Tatyanadır. Puşkin onu xarici gözəllikdən daha çox daxili zənginliyi ilə fərqləndirir. Səmimiyyəti, mənəvi bütövlüyü, ailə dəyərlərinə sədaqəti və hisslərinin təbiiliyi Tatyananı rus ədəbiyyatının ən yaddaqalan qadın obrazlarından birinə çevirmişdir. O, hisslərini gizlətmədən ifadə etsə də, sonrakı həyatında vicdanını və mənəvi prinsiplərini şəxsi arzularından üstün tutur. Bu xüsusiyyətlər obrazın psixoloji dərinliyini artırmaqla yanaşı, müəllifin insan xarakterinə realist yanaşmasını da nümayiş etdirir. Puşkin "Yevgeni Onegin"də hadisələrin dinamikasından daha çox insanın daxili aləminin tədqiqinə üstünlük verir. Obrazların davranışları onların düşüncələrindən, tərəddüdlərindən və mənəvi seçimlərindən doğur. Bu baxımdan roman insan xarakterinin psixoloji inkişafını əks etdirən dərin realist əsərdir. Sonrakı rus realist nəsri üçün səciyyəvi olan psixoloji təhlil üsulunun ilkin nümunələri də məhz burada aydın şəkildə görünür.

Puşkinin yaradıcılığında lirika xüsusi yer tutur. Onun şeirləri əhatə etdiyi mövzu dairəsinin genişliyi ilə seçilir. Şair insanın daxili aləmini, vətənə bağlılığı, azadlıq arzusunu, sevgi hissini və həyat haqqında düşüncələri böyük səmimiyyətlə ifadə etmişdir. Bu baxımdan Puşkin lirikası rus poeziyasının inkişafında yeni mərhələnin başlanğıcı hesab olunur. Mir Cəlal Paşayev qeyd edir: “Puşkin rus poeziyasının ən yaxşı milli ənənələrini davam və inkişaf etdirməklə bərabər, bu poeziyanı dünya səhnəsinə çıxarmış və yeni tipli poeziya yaratmışdı. Puşkinin poeziyası dünya poeziyası tarixində realizmin qələbəsi idi.” [3, səh.13] Puşkin poeziyasının əsas xüsusiyyətlərindən biri sadəliklə dərin mənanın vəhdətidir. Onun poetik üslubunda sözün ahəngi, ritmi və emosional təsir gücü xüsusi yer tutur. Məhz buna görə Puşkinin şeirləri həm bədii gözəlliyi, həm də fikrin aydınlığı ilə seçilir.

Ey sevgi çeşməsi, ey canlı fontan!
Bir cüt gül gətirdim, asım yaxandan.
Vurğunam susmayan könül varına,
Bir də şairanə göz yaşlarına.
Gümüşü tozların sıçrayıb, axıb,
Tökülür üstümə sərin şeh kimi.
Çağla ürəyinlə, sevinc bulağı,
Dadım Zümzümənin şirin şəhdini... [1. səh. 34]

Belinski Puşkin poeziyasının bədii kamilliyini yüksək qiymətləndirərək yazırdı: "Rus dilinin bütün akustik zənginliyi, bütün ifadə gücü onda heyrətamiz bir dolğunluqla təcəssüm etmişdir." [4.] Bu fikir Puşkin yaradıcılığında rus dilinin ifadə imkanlarının ən yüksək səviyyədə reallaşdığını göstərir. Şair dilin sadəliyini qorumaqla yanaşı, ona yeni poetik çalarlar qazandırmış, rus ədəbi dilinin formalaşmasına mühüm töhfə vermişdir. Puşkin lirikasında vətən mövzusu aparıcı istiqamətlərdən biridir. Müəllif vətən sevgisini pafoslu çağırışlarla ifadə etmir, xalqın tarixinə, milli dəyərlərinə və gələcəyinə inam vasitəsilə ifadə edir. Onun əsərlərində vətən anlayışı milli yaddaşı, dili və mədəniyyəti özündə birləşdirən mənəvi dəyər kimi təqdim olunur. Bu səbəbdən şairin vətənpərvərlik mövzusunda yazdığı şeirlər sonrakı rus poeziyasında da güclü təsir yaratmışdır. R. Mirzəzadə qeyd edir: “Puşkin orijinal milli şair kimi yetişərkən, sənətin və

poeziyanın böyük xalq işi olduğunu dərk edir və öz yaradıcılığında bu cəhətə xüsusi olaraq diqqət edirdi. ” [3, səh. 4]

Azadlıq ideyası da Puşkin yaradıcılığının əsas istiqamətlərindən biridir. Şair insanın mənəvi azadlığını cəmiyyətin inkişafı üçün vacib şərt hesab edir. Onun azadlıq mövzusunda yazdığı şeirlər dövrünün ictimai-siyasi hadisələri ilə səsləşsə də, yalnız konkret tarixi hadisələrin təsviri ilə məhdudlaşmır. Bu əsərlərdə azadlıq insanın ləyaqəti, vicdanı və mənəvi bütövlüyü ilə əlaqələndirilir. Məhz buna görə Puşkinin azadlıq haqqında düşüncələri bu gün də öz aktuallığını qoruyub saxlayır. Şairin sevgi lirikası da rus poeziyasında xüsusi mərhələ təşkil edir. Puşkin sevgini insanın daxili aləmini zənginləşdirən mənəvi qüvvə kimi təqdim edir.

Mən sizi sevirdim: eh, kim bilir, kim,
Bəlkə də, sönməyib hələ o eşqim.
Sizə qəm yetirmək istəməyib mən,
Eşqimdən əl üzdüm daha bu gündən. [1. səh. 63]

Bu şeirdə Puşkin göstərir ki, əsl sevgi sevdiyin insanın xoşbəxtliyini istəməkdir. O, sevgisinə qarşılıq almır, lakin incimir, nifrət etmir, pislik etmir. Əksinə, ən səmimi arzusu sevdiyi insanın xoşbəxt olmasıdır. Şair sadə, lakin təsirli bədii ifadə vasitələri ilə insanın düşüncələrini təcəssüm etdirir.

Puşkin həm də rus realist nəsrinin və milli dramaturgiyanın əsasını qoyan sənətkarlardan biridir. Onun nəsr və dram əsərləri rus ədəbiyyatında yeni bədii düşüncə tərzinin formalaşmasına mühüm təsir göstərmiş, sonrakı nəsil yazıçılar üçün yaradıcılıq məktəbi rolunu oynamışdır. Puşkin bu əsərlərində cəmiyyətlə şəxsiyyət arasındakı münasibətləri və tarixi hadisələrin insan taleyinə təsirini ön plana çəkmişdir. Puşkinin "Belkin povestləri" rus realist nəsrinin ilk uğurlu nümunələrindən hesab edilir. Bu silsilədə müəllif adi insanların gündəlik həyatına müraciət edir, mürəkkəb süjet qurmaqdan daha çox insan xarakterinin müxtəlif cəhətlərini göstərməyə çalışır. Yazıçının diqqət mərkəzində sadə insanların sevinci, ümidi, tərəddüdü və mənəvi seçimləri dayanır. Bu baxımdan Puşkin rus nəsrində insanın daxili aləminin bədii tədqiqinə yeni istiqamət qazandırmışdır.

Tarixi mövzuya müraciət etdiyi "Kapitan qızı" romanı da Puşkin yaradıcılığında xüsusi yer tutur. Əsərdə Yemelyan Puqaçov üsyanı fonunda cəmiyyət, hakimiyyət və insan münasibətləri realist şəkildə təsvir edilir. Yazıçı tarixi hadisələri birtərəfli qiymətləndirmir, müxtəlif sosial təbəqələrin mövqeyini göstərərək oxucuya hadisələri fərqli baxış bucağından dərk etmək imkanı yaradır. Məhz bu obyektiv yanaşma romanın bədii dəyərini artıran əsas xüsusiyyətlərdən biridir. Təsadüfi deyil ki, Nikolay Qoqol "Kapitan qızı" haqqında yazırdı: ""Kapitan qızı" qətiyyətlə demək olar ki, rus ədəbiyyatında roman janrında yazılmış ən mükəmməl əsərdir." [4.] Bu fikir Puşkinin rus nəsr sahəsində də rus ədəbiyyatına yeni bədii-estetik dəyər qazandırdığını göstərir.

Puşkinin dramaturgiyası da rus teatr tarixində yeni mərhələnin başlanğıcı hesab olunur. "Boris Qodunov" faciəsində müəllif klassik dram ənənələrindən bəhrələnsə də, tarixi hadisələri canlı insan xarakterləri üzərində qurur. Əsərin əsas ideyası tarixi hadisələr fonunda xalqın tarixi proseslərdə oynadığı rolu göstərməkdir. Burada tarixi şəxsiyyətlər ideal qəhrəman kimi təqdim olunmur. Onlar qərar verən, səhv edən, tərəddüd edən canlı insanlar kimi təsvir edilir. Bu yanaşma rus tarixi dramaturgiyasında realizmin möhkəmlənməsinə mühüm təsir göstərmişdir.

Nəticə

Beləliklə, Puşkinin lirikası, nəsri və dramaturgiyası rus realist ədəbiyyatının təşəkkülündə mühüm mərhələ təşkil etmişdir. O, bədii sözün imkanlarını genişləndirərək insan xarakterinin psixoloji dərinliyini, tarixi hadisələrin çoxşaxəli mahiyyətini və cəmiyyətin problemlərini yeni bədii baxışla təqdim etmişdir. Sonrakı dövrdə Tolstoy, Dostoyevski, Turgenev, Çexov və digər klassiklərin yaradıcılığında inkişaf edən bir çox bədii-estetik prinsiplərin başlanğıcı məhz Puşkinin nəsr və dramaturgiyasında müşahidə olunur.

Aparılan təhlillər göstərir ki, Aleksandr Puşkin rus ədəbiyyatının inkişaf tarixində yeni mərhələnin əsasını qoyan sənətkarlardan biridir. Onun yaradıcılığı poeziya, nəsr və dramaturgiya kimi müxtəlif sahələri əhatə etməklə yanaşı, rus ədəbi dilinin formalaşmasına, realist bədii düşüncənin inkişafına və milli ədəbi ənənənin zənginləşməsinə mühüm təsir göstərmişdir.

Ədəbiyyat

1. Puşkin A. S. Seçilmiş əsərləri (şeirlər, poemalar, «Yevgeni Onegin» mənzum romanı). Bakı: Çağdaş As, 2012. 336 s.
2. Şeirlər məclisinin gövhəri Puşkin / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt. ed. R. Məmmədli ; ixt. red. və burax. məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. 43 s.
3. Mirzəzadə, R. “...Şeiriylə dolaşdı Yer kürəsini, / Puşkin – Rusiyanın şair balası...” / R. Mirzəzadə // Həftə içi. – 2017. – 1 fevral. – S. 4.
4. Гоголь Н. В. Собрание сочинений в 8 т. М., 1984. Т. 7.
5. Пушкин А. С. Собрание сочинений в 10 т. М. : Художественная литература, 1974.